# 65 yaş nədir ki...



Tanınmış jurnalist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Etibar Babayev bu gün ömrünün 65 illik zirvəsində dir. 70-in, 80-nin, 90-nın, 100-ün fəthinə doğru istiqamət götürəcək. Media və sənət aləminin yaxşı tanıdığı, dərin zəkaya, iti mühakiməyə malik olan Etibar Babayev müasir jurnalistika tariximizin əsas sütunlarındandır. Bu günə qədərki fəaliyyətində jurnalistikanın bütün təməl prinsiplərinə sadiqlik nümayiş etdirən və bunu hər əməlində göstərən Etibar Babayev jurnalist fəaliyyətinə 1970-ci ildən Azərbaycan Teleradio verilişləri Komitəsinin redaksiyaları ilə əməkdaşlıqla başlayıb. "Tələbə klubu", "Yeddinci qitə", "Sözlü-nəğməli İstanbul", "Kanal-6 təqdim edir" kimi populyar verilişlərin müəllifi və aparıcısı olaraq tamaşaçıların rəğbətini qazanıb. Uzun illər "Ədalət" qəzetində köşə yazarlığı edib. Etibar Babayev Azərbaycan Komsomolu Mərkəzi Komitəsində Təbliğat və Mədəni Kütləvi İşlər şöbəsinin müdiri (1975-1979), Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Mədəniyyət şöbəsində təlimatçı (1979-1981), Bakı şəhər Partiya Komitəsinin Təbliğat-Təşviqat şöbəsinin müdiri (1981-1988) kimi məsul vəzifələrdə çalışıb. 1981-1989-cu illərdə dörd çağırış Bakı Şəhər Sovetinin deputatı seçilib. 1989-1992-ci illərdə "Azərbaycantelefilm"in direktoru, Azərbaycan Dövlət Teleradio şirkətinin sədr müavini, 2001-2006-cı illərdə "Space" müstəqil teleradio şirkətinin prezidenti olub.

Elmi-pedaqoji fəaliyyətlə də məşğul olan Etibar Babayev 2001-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, hazırda isə Bakı Slavyan Universitetində müəllim kimi fəaliyyət göstərir. 2009-cu ildən BSU-da Jurnalistikanın Nəzəriyyəsi və Təcrübəsi kafedrasının müdiridir. 2010-2015-ci illərdə Azərbaycan Televiziya və Radio verilişləri Qapalı Səhmdar Cəmiyyətində yeni yaradılan Teleradio Akademiyasında rektor vəzifəsində işləyib. ATV şirkətinin Bədii Şurasının sədridir.

Etibar Adil oğlu Babayev Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının, Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının, Teatr Xadimləri İttifaqı və Azərbaycan Jurnalistlər Birliyinin, Reklamçılar İttifaqının üzvüdür. Müxtəlif illərdə Həsən bəy Zərdabi, Hacı Zeynalabdin Tağıyev, "Qızıl qələm" mükafatlarına, Yusif Məmmədəliyev medalına, müxtəlif Fəxri Fərman və Diplomlara layiq görülüb.

E.Babayev ABŞ, İngiltərə, Rusiya, Fransa, İspaniya, Belçika, Hollandiya, Almaniya, Macarıstan, Avstriya, Rumıniya, Polşa, Türkiyə, Seneqal, Misir, Vyetnam, Çin Xalq Respublikası, İran, İsveç, İsveçrə və digər ölkələrə xidməti səfər edib, görkəmli ictimai-siyasi xadimlərlə, elm, sənət aləminin, iş dünyasının tanınmış simaları ilə görüşüb, eksklüziv müsahibələr alıb. Xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə, forumlarda rəsmi nümayəndə heyətlərinin tərkibində iştirak edib. Azərbaycanda və xarici ölkələrdə dərc olunan çoxsaylı publisistik yazıların, elmi məqalələrin, eləcə də "Bu da bir imtahandır", "Yalana heykəl", "Düz söz əyri qulağa necə girər?", " Sözün varsa, danış", "Qəfəsdə yaşamaq həyat deyil", " Devrimin kölgəsində fırtınalar", "Teatrda müasirlik axtarışları", "Yalana heykəl", "Ömrün 100 anı" adlı kitabların, yüzlərlə televiziya proqramının, eləcə də "Sağalmaz yara", "Birincilər", "Bir millət, iki dövlət", "Zirvə", "Çiçək yağışı" kimi 30-dan artıq sənədli filmin ssenari müəllifidir.

Bütün bunlarla yanaşı Etibar Babayev həm də gözəl insan, həmişə fəal olan elm adamı, ziyalı, müəllim, iş yoldaşı, rəhbərdir. Etibar müəllimi Bakı Slavyan Universitetinin müəllim və tələbə kollektivi adından təbrik edirik. Bundan sonrakı fəaliyyətində yeni-yeni uğurlar, nailiyyətlər arzu edirik.

BSU-nun müəllim kollektivi